# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**№ 557**

**Bakı şəhəri, 15 dekabr 2017-ci il**

## “Məlumat toplularının rəsmi qeydiyyata alınması və rəsmi qeydiyyatdan keçirilmiş məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatdan keçirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 19 avqust tarixli 156 nömrəli, qərarında dəyişikliklər edilməsi haqqında

“Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1593 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 19 avqust tarixli 156 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 785; 2009, № 2, maddə 151; 2010, № 2, maddə 151; 2013, № 5, maddə 582) ilə təsdiq edilmiş “Məlumat toplularının rəsmi qeydiyyata alınması və rəsmi qeydiyyatdan keçirilmiş məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatdan keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.6-cı bəndin birinci abzasında “nümunəsi Agentlik tərəfindən təsdiqlənmiş ərizə formasını” sözləri “Agentlik tərəfindən müəyyən edilmiş formaya uyğun ərizəni” sözləri ilə əvəz edilsin.

**2.** 5-ci hissənin “Qeydlər”inin ikinci abzası ləğv edilsin.

***Artur Rasi-zadə***
***Azərbaycan Respublikasının Baş naziri***